TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

___________________ 2023-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**KOMFOVİTA ADVANS** daxilə qəbul üçün suspenziya
COMFOVITA ADVANCE®

**Tərkibi**
*Təsiredici maddə:* 250 ml (1 flakon) məhlulun tərkibində 37500,0 mq şirinbiyan kökü ***(****Glycyrrhiza glabra root)* (hydrolat), 18750,0 mq dərman limonotu *(Melissa officinalis leaf)* (hidrolat), 450,00 mq adi ərgüdə meyvəsinin quru ekstraktı *(Vitex agnus castus fruit dry extract)* (quru ekstrakt), 18750,0 mq Mio-inozitol *(Myo-inositol),* 7,5 mq fol turşusu *(Folic Acid)* vardır.
*Köməkçi maddələr:* ksantan qətranı, natrium benzoat, kalium sorbat, limon turşusu, sukraloza, təmizlənmiş su.

**Təsviri**
Şəffaf, açıq-qəhvəyi rəngli spesifik qoxuya malik suspenziyadır.

**Farmakoterapevtik qrupu**
Ginekologiyada tətbiq olunan digər preparatlar. Klimakterik sindrom zamanı tətbiq olunan fitopreparatlar.
**ATC kodu:** G02CX.

**Farmakoloji xüsusiyyətləri**
Komfovita advans bitki mənşəli inqredientlərin buxarla distillə edilməsindən alınmış hidrolatdır.
Preparatın klinik effekti inqrediyentlərin tərkibindəki essensial yağlar, flavonoidlər, alkaloidlər, qlikozidlər, tanninlər, pektinlər, saponinlər, qatılaşmış vitaminlər, minerallar, mikroelementlər, qətranlarla bağlıdır. Preparat hormonları tənzimləyən, sakitləşdirici, spazmolitik və analgetik təsir göstərir. Preparatın təsiri bədənin müdafiə qabiliyyətinin aktivləşdirilməsinə və tərkibindəki bitki, mineral mənşəli inqredientlərin təsiri nəticəsində pozulmuş funksiyaların normallaşdırılmasına əsaslanır.
Şirinbiyan kökünun *(Glycyrrhiza glabra root)* tərkibində glisirrizin (6-12%), glisirrizin turşusu və onun duzları, flavon qlikozidlər (likiritin, likiritigenin, likiritozid), izoflavonoidlər (formononetin, glabren, glabridin, qlabrol, 3-hidroksidrol, qlabroliz, qlabridin, qlikiritigenin, qlikiritozid). Kumestan törəmələri (qliserol, izoqliserol, likvokumarin), hidroksikumarinlər (herniarin, umbelliferon, qlikokumarin, likopiranokumarin daxil olmaqla), steroidlər (sterollar, o cümlədən beta-sitosterol, sigmasterol), efir yağları (az miqdarda).
Biyan böyrəklərdə 11-beta-hidroksisteroid dehidrogenaza fermentini ingibə edir, bu da kortizolun kortizona çevrilməsinin zəifləməsinə səbəb olur. Kortizolun mineralokortikoid fəaliyyəti qan zərdabında kaliumun konsentrasiyasının azalması və natriumun miqdarının artması ilə əlaqədardır

ki, bu da orqanizmdə mayenin tutulmasına, çəki artımına və arterial hipertoniyaya səbəb olur. Qlisirrizin turşusu və onun metabolitləri kortizolun periferik metabolizmınə maneə törədir və psevdoaldosterona bənzər effekt yaradır. Liqviritozid saya əzələlərə spazmolitik təsir göstərir.
Dərman limonotu *(Melissa officinalis leaf)* – bioloji aktiv maddələrin mürəkkəb kompleksi sayəsində limonotu preparatları qabarıq antihipoksant təsir göstərir ki, bu da öz növbəsində kardio-, neyro-, nefro- və immunoprotektiv xüsusiyyətlərin əsasını təşkil edir. Onlar dismenoreyanın yüngül formalarını, hamiləliyin toksikozunun təzahürlərini, menopauza pozğunluqlarını aradan qaldırır, kişilərdə cinsi vəzilərin fəaliyyətini normallaşdırır.
Adi ərgüdə meyvəsinin quru ekstraktı *(Vitex agnus castus fruit dry extract)* – cinsi hormonların konsentrasiyasına normallaşdırıcı təsir göstərir. Prolaktin hasilatının azalmasına səbəb olan dofaminergik təsiri hiperprolaktinemiyanı aradan qaldırır. Prolaktinin artan konsentrasiyası gonadotropinlərin ifrazını pozur, bunun nəticəsində follikulların yetişməsi, ovulyasiya və sarı cismin formalaşması pozula bilər ki, bu da daha sonra estradiol və progesteron arasında disbalans yarada və menstrual sikldə pozulmalara, həmçinin mastodiniyaya səbəb ola bilər. Estrogenlərdən və digər hormonlardan fərqli olaraq, prolaktin həm də süd vəzilərindəki proliferativ proseslərə birbaşa stimullaşdırıcı təsir göstərir, birləşdirici toxumanın formalaşmasını gücləndirir və süd kanallarının genişlənməsinə səbəb olur. Prolaktinin tərkibində azalma süd vəzilərində patoloji proseslərin tərs inkişafına gətirib çıxarır və ağrıları aradan qaldırır. Gonadotrop hormonların nisbətinin normallaşması və ritmik hasilatı menstrual siklin ikinci fazasının normallaşmasına səbəb olur.
Mio-inozitol *(Myo-inositol)* – B qrupuna aid vitaminlər qrupuna aid təbii maddədir. İnsulin sensibilizəedici agent kimi fəaliyyət göstərən Mio-İnozitol insulin hormonunun düzgün sorulmasına kömək edir, bu da öz növbəsində yumurtalıqların düzgün işləməsini, yumurta hüceyrələrinin keyfiyyətini dəstəkləyir, menstrual sikli tənzimləyir. Ovulyasiya prosesi müxtəlif hormonların kompleks qarşılıqlı təsirini əhatə edir. Müvafiq olaraq, hormonal disbalans menstrual sikllərin nizamının pozulmasına və ovulyasiyaların sayının azalmasına səbəb ola bilər.
Fol turşusu *(Folic Acid)* – B qrupu (vitamin $B_c$, $B_9$) vitaminlərinə aiddir. Bədəndə fol turşusu müxtəlif metabolik proseslərdə iştirak edən koenzim olan tetrahidrofol turşusuna çevrilir. Meqaloblastların normal yetişməsi və normoblastların əmələ gəlməsi üçün zəruridir. Eritropoezi stimullaşdırır, amin turşularının (metionin, serin daxil olmaqla), nuklein turşularının, purinlərin və pirimidinlərin sintezində, xolin, histidin mübadiləsində iştirak edir. Hamiləlik dövründə bədəni teratogen amillərin təsirindən qoruyur. Plasentanın normal yetişməsinə və fəaliyyətinə kömək edir.

**İstifadəsinə göstərişlər**

- Mastalgiya, baş ağrısı, yorğunluq, ödem, zəiflik, depressiv pozğunluqlar və s. kimi predmenstrual sindromun (PMS) əlamətlərinin azaldılması;
- polimenoreya, oliqomenoreya və ya amenoreya kimi menstrual pozğunluqlarda;
- yumurtalıqların polikistozu sindromu, metabolik sindrom, piylənməsi olan qadınlarda reproduktiv funksiyanın yaxşılaşdırılması;
- qadınlarda hormonal pozğunluqlar, stress və dəyişkən əhval-ruhiyyə zamanı ümumi vəziyyətinin yaxşılaşdırılması.

**Əks göstərişlər**

Preparatın hər hansı komponentinə qarşı artmış həssaslıq zamanı qəbul edilmir.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

Əgər qəbul vaxtı ötürülmüşsə, növbəti qəbul zamanı ikiqat doza qəbul etmək məsləhət görülmür.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**

Digər preparatlarla qarşılıqlı təsiri məlum deyil.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**

Hamiləlik və laktasiya dövründə tətbiq edilmir.

**Uşaqlarda istifadəsi**
11 yaşadək uşaqlarda tətbiq edilmir.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Nəqliyyatın və digər mexanizmlərin idarə edilməsi zamanı reaksiya sürətinə təsiri yoxdur.

**İstifadə qaydası və dozası**
Böyüklərdə Komfivita advans daxilə 20 ml gündə 1 dəfə qəbul edilir. İstifadədən öncə çalxalamaq lazımdır. Tövsiyə olunan sutkalıq dozanı aşmaq olmaz.

**Əlavə təsirləri**
Tövsiyə olunan dozalarda istifadə zamanı əlavə təsirlər müşahidə olunmamışdır.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması zamanı hər hansı klinik təzahürlər qeydə alınmamışdır.

**Buraxılış forması**
250 ml suspenziya, flakonda. 1 flakon ölçülü stəkan və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25ºC temperaturdan yüksək olmayan, işıq şüalarından, rütubətdən uzaq və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Miquel Y Garriage SL, Spain.
C/Joaquin Costa,18-1º, Montgat, 08390 Barcelona.

**Qeydiyyat vəsiqəsinin sahibi**
Grand Medical Group AG, Switzerland.
Kornmarkt 10, C-6004 Luzern, İsveçrə.